# BİLQAMIS DASTANI ŞUMER ƏDƏBİYYATININ BƏDİİ NÜMUNƏSİ KİMİ

***Aynur Zahir Qızı Bədəlova***

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

*https://orcid.org/my-orcid?orcid=0009-0002-9288-6218*

**Xülasə:** Bu məqalədə qədim Şumer mədəniyyətinin şah əsərlərindən biri olan Bilqamıs dastanı bədii və fəlsəfi cəhətdən təhlil olunur. Əsərdə insanın əbədilik axtarışı, dostluq və mənəvi yetkinlik kimi mövzular poetik dildə ifadə olunmuşdur. Dastanın qəhrəmanı Bilqamısın fiziki gücdən mənəvi axtarışa keçidi, onun daxili dəyişməsi və insan kimi kamilləşməsi qədim ədəbiyyatda nadir təsvir olunan mövzulardandır. Mifoloji motivlər, simvolik obrazlar və ritmik poetik quruluş dastana bədii və fəlsəfi dəyər qazandırır. Eyni zamanda tanrılarla insan arasındakı münasibət, ölümsüzlük ideyasının bədii əksi, bu əsərin əsas mövzu istiqamətlərindəndir. Nəticə etibarilə, "Bilqamıs" dastanı qədim Şumer ədəbiyyatının sərhədlərini aşaraq, bəşəri ədəbiyyatın təşəkkülündə ilkin mərhələni təmsil edən nadir mənbələrdən biri hesab olunur.

**Açar sözlər:** mədəniyyət, qəhrəman, mübarizə, münasibət.

## THE EPIC OF GILGAMESH AS AN ARTISTIC EXAMPLE OF SUMERIAN LITERATURE

**Abstract:** This article analyzes the epic of Gilgamesh, one of the masterpieces of ancient Sumerian culture, from artistic aspects. The work expresses themes such as man's search for eternity, friendship, and spiritual maturity in poetic language. The transition of the hero of the epic, Gilgamesh from physical strength to spiritual search, his internal change and his perfection as a human being are among the themes rarely described in ancient literature. Mythological elements, symbolic images, and rhythmic poetic structure give the epic artistic and philosophical value. At the same time, the relationship between gods and humans, the artistic reflection of the idea of immortality are among the main thematic directions of this work. As a result, the epic of " Gilgamesh " is considered one of the rare sources that transcends the boundaries of ancient Sumerian literature and represents the initial stage in the formation of human literature.

**Keywords:** culture, hero, struggle, attitude.

## Giriş

Qədim Şumer mədəniyyətinin ən parlaq bədii nümunəsi hesab olunan Bilqamıs dastanı bəşər tarixində yazıya alınmış ilk epik poemalardan biri kimi öz əhəmiyyətini bu günədək qoruyub saxlamışdır. Bu əsər sadəcə bir qəhrəmanın fövqəltəbii güclərlə mübarizəsini və sərgüzəştlərini nəql etmir, eyni zamanda insan varlığının mahiyyətinə, ölümün labüdlüyünə və mənəvi yetkinliyə aparan daxili dönüşə bədii dildə yanaşır. Dastanın qəhrəmanı Bilqamısın öz gücünə olan sonsuz inamı, ölümsüzlüyə can atması və dostu Enkidunun itkisi ilə sarsılması, insanın ilahi güclərlə deyil, mənəvi dəyərlərlə ölçülə biləcəyini göstərir. Bu baxımdan Bilqamıs obrazı bütün zamanlarda insanlığın rəmzi təmsilçisinə çevrilmişdir.

Bilqamıs dastanında mərkəzi mövzulardan biri ölüm və onun insan ruhunda doğurduğu sarsıntıdır. Enkidu adlı vəhşi, lakin saf təbiətli varlığın sivil həyata daxil edilməsi və sonradan Bilqamısla dərin

dostluq qurması, dastana insani münasibətlərin nə qədər vacib və dəyişdirici gücə malik olduğunu göstərən mühüm süjet xəttidir. Enkidunun ölümü Bilqamıs üçün sadəcə bir dost itkisi deyil, həm də ilk dəfə əbədilik arzusunun nə qədər boş və çarəsiz olduğunu başa düşməsi ilə nəticələnir. Bu məqamda qəhrəmanın xarici mübarizədən daxili savaş mərhələsinə keçidi baş verir. Bilqamısın uzun və əzablı səyahətə çıxaraq ölümsüzlük sirrini axtarması, lakin nəticədə bu sirrin əlçatmaz olduğunu anlayaraq yenidən öz şəhərinə qayıtması, dastanın bədii-fəlsəfi məğzini təşkil edir. İnsan əbədilik axtarışında deyil, mənalı bir ömür yaşamaq uğrunda çalışmalıdır.

Dastanda tanrılarla insanlar arasındakı münasibət də diqqətəlayiqdir. Şumer mədəniyyətində tanrılar insan taleyinin formalaşmasında mühüm rol oynayır və bu münasibət çox zaman cəza, qəzəb və ya müdaxilə formasında təzahür edir. Məsələn, Bilqamıs və Enkidunun Sidr ağacının qoruyucusu Humbabanı öldürməsi nəticəsində tanrıların qəzəbinə tuş gəlmələri və Enkidunun cəzalandırılması, ilahi ədalət anlayışının həmin dövr dünyagörüşündə necə mühüm yer tutduğunu göstərir. Lakin bu ədalət anlayışı bəzən insan üçün qəddar və anlaşılmaz görünür. Elə bu səbəbdən də dastanda Tanrı iradəsi qarşısında insanın çarəsizliyi və daxili üsyanı müşahidə olunur. Bilqamısın tanrılarla mübahisə etməsi, Enkidunun ölümündən sonra onların qərarına qarşı çıxması, insan iradəsinin gücünə inamı ifadə edir, bu da onu adi bir qəhrəmandan daha çox, həyat və varlıq haqqında dərin fikirləri ilə seçilən bir obrazdır. Dastanın bədii dili və poetik strukturu onu yalnız məzmun baxımından deyil, forma baxımından da zəngin və diqqətəlayiq edir. Şumer dili ilə gil lövhələr üzərində yazılmış bu əsər zamanla akkad və digər dillərə tərcümə edilmiş, müxtəlif dövrlərdə nüsxələnmişdir. Mətnin ritmik quruluşu, təkrarlanan ifadələr, paralel cümlə quruluşları və bədii təsvir vasitələri, onun həm şifahi, həm də yazılı ədəbiyyat üçün necə ustalıqla formalaşdırıldığını sübut edir. Epitet, metafora və mübaliğələr dastanın poetikasını formalaşdırır. Bilqamısın "göylərin nizamını pozan", "tanrılar qədər qüdrətli" obraz kimi təqdim olunması bədii vasitələrin necə ustalıqla istifadə olunduğuna nümunədir. Bu tip poetik quruluş həm də dastanın yaddaqalan olmasına, nəsillərdən-nəsillərə ötürülməsinə imkan yaradır. Dastanda insanın mədəni inkişafı ilə onun təbii və ibtidai meylləri arasında olan daxili ziddiyyətlər əks olunur. Enkidunun meşədə yaşayıb heyvanlarla birgə həyat sürməsi, daha sonra isə şəhər mədəniyyətinə gətirilməsi, insanın vəhşilikdən mədəniyyətə keçid prosesinin bədii ifadəsidir. Şumer dünyagörüşündə bu keçid bir təkamül mərhələsi kimi təqdim olunur. Lakin bu dəyişiklik həm də itki deməkdir. Enkidu mədəni cəmiyyətə daxil olduqdan sonra əvvəlki saf təbiətini və həyat gücünü itirir. Bu, insanın inkişaf etdikcə təbiətdən uzaqlaşdığını və bunun bəzən mənfi nəticələr verdiyini göstərir. Bilqamısın ölümsüzlük axtarışında rast gəldiyi Utnapişti obrazı isə dastanın kulminasiya nöqtəsi sayılır. Utnapişti tanrıların qərarı ilə böyük daşqından xilas olmuş və ölümsüzlüyə nail olmuş insandır. Onun Bilqamısa verdiyi cavablar, *həyatın əbədilik deyil, dəyəri üzərində qurulmalıdır* fikrini təsdiqləyir. Bu görüşdən sonra Bilqamıs həyatın mənasının izzətdə, ağıl və ədalətlə idarə olunan bir ömürdə olduğunu anlayaraq şəhərinə geri dönür. O, artıq əvvəlki kimi sadəcə güc və şöhrət arzulamır, müdrik və məsuliyyətli bir hökmdar olur.

Beləliklə, Bilqamıs dastanı qədim insanların dünya və həyat haqqında fikirlərini göstərən ilk əsərlərdən biridir. Bu əsər insanın özü, həyatın mənası və ölüm gerçəyini qəbul etməsi kimi dərin mənaları ifadə edir. Onun qəhrəmanlıq anlayışı həyatın sınaqları qarşısında göstərilən iradə, müdriklik və mənəvi dözümlə ölçülür. Bu əsər qədim dövrdə insan ruhunun nə qədər dərin, mürəkkəb olduğunu sübut edir. Bilqamısın simasında biz həm qəhrəmanı, həm axtaranı, həm də anlayanı görürük və bu üç keyfiyyət onu Şumer ədəbiyyatı ilə yanaşı, bütövlükdə dünya ədəbiyyatının ölməz obrazına çevirir.

**Ədəbiyyat**

1. Nağıyev, C. (2009). Qədim Şərq ədəbiyyatı tarixi. Bakı, Asiya.
2. Novruzov, T. (2001). Qədim Şərq ədəbiyyatı tarixi. Bakı, Qanun.
3. Kramer, S. N. (1981). History Begins at Sumer: Thirty-Nine Firsts in Recorded History. University of Pennsylvania Press.
4. George, Andrew (2003). The Epic of Gilgamesh: A New Translation. Penguin Classics.
5. Dalley, Stephanie (2008). Myths from Mesopotamia: Creation, the Flood, Gilgamesh, and Others. Oxford University Press.